# Dünyada sülhün təminatçısı kimi qəbul edilən Lider



"Prezident İlham Əliyevə ad günü münasibətilə ünvanlanan təbrik məktubları ona olan diqqətin və etimadın göstəricisidir. Prezidentin uzaqgörən siyasət yürütməsi, beynəlxalq aləmdə böyük nüfuz qazanması, eləcə də dünya dövlətləri ilə əlaqələrin inkişafında müstəsna rol oynaması təbrik məktublarında bir ana xətt kimi keçir. Bütün bunlar həm də Azərbaycan xalqının böyük və nüfuzlu bir rəhbərə sahib olduğunu açıq-aydın göstərir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib. Deputat qeyd edib ki, bu gün dövlətimizin başçısına bütün dünyada böyük etimad və diqqət göstərilməsi xalqımıza qürur gətirir: "Prezident İlham Əliyevin yürütdüyü siyasətə həm ölkə daxilində, həm də xaricdə böyük inam var. Bu bir daha sübut edir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında ilk yerlərdən birini tutur. Burada Çin liderinin məktubunu xüsusi qeyd etmək lazımdır. Həmin məktubda bir çox vacib məqamlara və məsələlərə geniş şəkildə yer verilib".

Deputat qeyd edib ki, Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi, eləcə də 19-20 sentyabrda həyata keçirilən antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyimizin təmin olunması ölkədə sülhün və sabitliyin əsaslarını möhkəmləndirib. Bu faktor da beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Şübhəsiz ki, Prezident İlham Əliyev tarix yazmış, eyni zamanda öz adını tarixə qızıl hərflərlə yazdırmış böyük sərkərdə, dahi şəxsiyyətdir.

Ceyhun Məmmədov vurğulayıb ki, dövlət başçısının bütün dünyada humanist və sülhsevər kimi tanınması məktublarda da açıq-aydın görünür: "Bu gün Azərbaycan davamlı olaraq imkanlarını genişləndirir, ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına öz töhfələrini verir. Bu qlobal töhfələrimiz və təşəbbüslərimiz dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Bunun nəticəsidir ki, təbrik məktublarında Prezidentə ünvanlanmış xoş arzularla yanaşı, ölkəmizlə münasibətlərin genişləndirilməsinə marağın olduğu da qeyd edilib".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev xalqımızı ən ümdə arzularına qovuşdurub, Qarabağı və Şərqi Zəngəzuru uzun illər sonra işğaldan azad etməklə başımızı uca, üzümüzü ağ edib. Elə təkcə bu səbəb Azərbaycan xalqının bütün dünyada nüfuz sahibi olan qalib lideri ilə fəxr etməsinə bəs edir!

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 29 dekabr (№ 286).- S.11.